| | |
|---|---|
| **Azərbaycan Tibb Universiteti**<br>**ONKOLOGİYA**<br>Fənni üzrə<br><br>**TƏDRİS PROQRAMI**<br>(SİLLABUS) | **“TƏSDİQ EDİRƏM”**<br>Onkologiya kafedrasının müdiri,<br>akademik Ə.T. Əmiraslanov<br>İmza _______________<br><br>13.09.2019 |

I-II müalicə profilaktika fakultələri tələbələri üçün

| | |
|---|---|
| **FƏNNİN KODU:** | 070101 |
| **FƏNNİN ADI:** | Bədxassəli şişlərin kimyəvi dərman terapiyası |
| **FƏNNİN TƏDRİS FORMASI:** | əyani |
| **FƏNNİN NÖVÜ:** | ixtisasın seçim fənni |
| **TƏDRIS YÜKÜ (SAAT) CƏMİ:** | 30 |
| **FƏNNİN TƏDRİS İLİ:** | 2019-2020 |
| **FƏNNİN TƏDRİS SEMESTRİ** | XI və ya XII |
| **KREDİT SAYI (hər 30 saata 1 kredit)** | 2 kredit |
| **FƏNNİN TƏDRİS DİLİ:** | Azərbaycan, rus, ingilis |
| **FƏNNİ TƏDRİS EDƏN MÜƏLLİMLƏR:** | akad. Ə.T. Əmiraslanov<br>prof. A.Y. Qazıyev<br>prof. A.Ə. Əmiraslanov<br>prof. N.M. Əmirəliyev<br>prof. R.B. Bayramov<br>dos. N.V. Qasımov<br>dos. Y.Ə. Nuriyev<br>dos. N.İ. Mehdiyeva<br>dos. T.S. Quliyeva<br>dos. E.E. İbrahimov<br>dos. R.Ş. Qurbanova<br>dos. E.R. Hüseynov<br>dos. K.R. Zeynalova<br>ass. S.S. Məmmədova<br>ass. İ.U. Cəfərova<br>ass. H.Q. Vəliyeva<br>ass. R.T. Abdullayeva<br>ass. Ş.H. Bağırova<br>ass. S.V. Abdıyeva |

**KAFEDRANIN ƏLAQƏ NÖMRƏLƏRİ:** (012) 541-59-77; 78
**KAFEDRANIN E-MAİL ÜNVANI:** department_oncology@amu.edu.az

**PREREKVİZİTİV FƏNN:** **Onkologiya**

**TƏLƏB OLUNAN DƏRSLİKLƏR VƏ DƏRS VƏSAİTLƏRİ:**

***Əsas:***

1. Ə.T. Əmiralanov, A.Y. Qazıyev. Onkologiya (2010). Dərslik.
2. R.B. Bayarmov. Onkologiya (2016). Dərslik.
3. Ə.T.Əmiraslanov, A.Y.Qazıyev, N.İ.Mehdiyeva. Süd vəzisi xərçəngi. (2013). Dərs vəsaiti.
4. Ə.T.Əmiraslanov, Z.Ə. Səfərov, A.Y.Qazıyev, T.S.Quliyeva, Y.M.Hətəmov. Ağciyər xərçəngi. Azərbaycan Tibb Universitetinin tələbələri üçün dərs vəsaiti (2016). Dərs vəsaiti.
5. Azərbaycanda palliativ tardımın təşkilinə dair metodik vəsait (2011).

***Əlavə:***

1. Под редакцией Н.И. Переводчиковой, В.А. Горбуновой. Руководство по химиотерапии опухолевых заболеваний (2018). Dərslik 2-ci nəşr.
2. Давыдов М.И., Ганцев Ш.Х. Онкология (2020). Учебник
3. Клинические рекомендации общероссийской организации «Российские общество онкомаммологов» по диагностике и лечению рака молочной железы. Под редакцией В.Ф. Семиглазова, Р.М. Палтуаева, Москва, 2018
4. T. Kuehr & J. Thaler, E.Woell. Chemotherapy protocols 2016. Dərslik.
5. Biglia N., Peccatori F.A. (Eds.) Breast Cancer, Fertility Preservation and Reproduction
6. (2015).
7. ESMO pocket guidelines. Breast cancer 2017. Dərs vəsaiti.
8. What is breast cancer? Let us explain it to you. ESMO/ACF patient guideseries based on the ESMO clinical practice guidelines.
9. What is colorectal cancer? Let us explain it to you. ESMO/ACF patient guideseries based on the ESMO clinical practice guidelines.
10. What is ovarian cancer? Let us explain it to you. ESMO/ACF patient guideseries based on the ESMO clinical practice guidelines.
11. What is cervical cancer? Let us explain it to you. ESMO/ACF patient guideseries based on the ESMO clinical practice guidelines.

**I. <u>Fənnin təsviri və məqsədi</u>:**

(Fənn haqqında qısa məlumat, onunla şərtləşən fənlər (bilavasitə bağlı olan/uyğun gələn), fənnin tədrisinin məqsədləri. Bu fənni öyrənməklə tələbələrin nəyi biləcəkləri, nəyə nail olacaqları və hansı vərdişlərə yiyələnəcəkləri qeyd edilir)

***Kursun qısa təsviri***: Bədxassəli şişlərin müasir dərman terapiyasının istiqamətləri: kimyəvi dərman terapiyası, hormonal- və antihormonal terapiya, bioterapiya, simptomatik müalicə.
Bədxassəli şişlərin müalicəsində kimyəvi dərman terapiyasının yeri: sərbəst, neoadyuvant, adyuvant, target terapiyası.
Kimyəvi dərman terapiyasının inkişaf tarixi (dünən, bü gün, sabah), kimyəvi dərman qrupları haqqında məlumat, qrupların aparıcı dərman preparatları, şişin inkişaf mərhələsindən (mitoz) asılı olaraq təsir mexanizmi. Kimyəvi dərman preparatlarının sitostatik və sitotoksik təsirləri.
Bədxassəli dərman terapiyasının effektivliliyinin qiymətləndirilməsi, müalicəvi patomorfoz, dərman terapiyasının ağırlaşmaları və aradan qaldırılması yolları.
Kimyəvi dərman preparatlarının yeridilmə yolları.
Palliativ yardım. Azərbaycanda palliativ yardımın inkişaf tarixi, əsas tərif və anlayışlar, palliativ yardımın prinsip və standartları, xəstə kontingenti və seçim meyarları, palliativ yardımın təşkilati formaları. Uşaqlqrda palliativ yardım göstərilməsi üzrə standart.
***Kursun məqsədi:*** "Bədxassəli şişlərin kimyəvi dərman terapiyası" fənninin əsas məqsədi bədxassəli şişlərin müalicəsində kimyəvi dərman vasitələrindən istifadə etməklə xəstələrin müayinə və müalicə alqoritminin yaradılması. Kimyəvi dərman terapiyasının göstəriş və əks göstərişlər haqqında məlumat almağı, kimyəvi dərman müalicəsinin aparılmasını tələbələrə aşılamaqdır.
Palliativ yardım haqqında məlumatları əldə etməkdir.

## II. Fənnin təqvim-mövzu planı:

| Həftələr* | Mövzunun adı və qısa icmalı | Mühazirə | Təcrübi məşğələ | Saat |
|---|---|---|---|---|
| | Mövzu № I<br>Kimyəvi dərman terapiyası, müalicənin fəsadları və onların aradan qaldırılma yolları<br><br>Qısa icmalı: Kimyəvi dərman terapiyasının tarixi. Şişəleyhinə dərman preparatlarının kliniki formakoloji xüsusiyyətləri. Şişəleyhinə dərman preparatlarının müalicəvi təsirinin qiymətləndirilməsi. Sərbəst, adyuvant və neoadyuvant dərman terapiyası. Target terapiya. Kimyəvi dərman terapiyasının ağırlaşmaları və aradan qaldırılması yolları. Müalicəvi patomorfoz haqqında məlumat.<br><br>Oxu materialları (kitabın adı, müəlliflər):<br>1. Ə.T.Əmiraslanov, A.Y.Qazıyev. Onkologiya.<br>2. R.B.Bayarmov. Onkologiya.<br>3. Под редакцией Н.И. Переводчиковой, В.А. Горбуновой. Руководство по химиотерапии опухолевых заболеваний.<br>4. Давыдов М.И., Ганцев Ш.Х. Онкология (2020). Учебник<br>5. Руководство по онкологии. Том I, II, III. Минск 2016. | – | Təcrübi məşğələ | 6 |
| | Mövzu № II<br>Süd vəzisi xərçənginin kimyəvi dərman müalicəsi. | | Təcrübi | |

| | | | | |
|---|---|---|---|---|
| | Hormonal-, antihormonal və target terapiyası<br><br>Qısa icmalı: Süd vəzi xərçənginin TNM təsnifatı. Süd vəzi xərçənginin bioloji yarımtipləri. Süd vəzi xərçənginin adyuvant və neoadyuvant terapiyası. Hormonal-, antihormonal və target terapiyası. Birincili yerli yayılmış və metastatik süd vəzi xərçənginin müalicəsində dərman terapiyasının əhəmiyyəti. Süd vəzi xərçəngi zamanı istifadə olunan dərman terapiyası rejimləri. Süd vəzi xərçənginin bioloji yarımtiplərinin yerli yayılmış və metastatik formalarında müalicə alqoritminin yaradılması.<br><br>Oxu materialları (kitabın adı, müəlliflər):<br>1. Ə.T. Əmiraslanov, A.Y. Qazıyev. Onkologiya.<br>2. Под редакцией Н.И. Переводчиковой, В.А. Горбуновой. Руководство по химиотерапии опухолевых заболеваний.<br>3. Давыдов М.И., Ганцев Ш.Х. Онкология (2020). Учебник<br>4. Руководство по онкологии. Том I, II, III. Минск 2016.<br>5. Клинические рекомендации общероссийской организации «Российские общество онкомаммологов» по диагностике и лечению рака молочной железы. Под редакцией В.Ф. Семиглазова, Р.М. Палтуаева, Москва, 2018<br>6. Biglia N., Peccatori F.A. (Eds.) Breast Cancer, Fertility Preservation and Reproduction<br>(2015).<br>7. ESMO pocket guidelines. Breast cancer 2017. Dərs vəsaiti.<br>8. What is breast cancer? Let us explain it to you. ESMO/ACF patient guideseries based on the ESMO clinical practice guidelines. | – | məşğələ | 6 |
| | Mövzu № III<br>Mədə xərçənginin və kolorektal xərçəngin kimyəvi dərman müalicəsi<br><br>Qısa icmalı: Mədə xərçənginin TNM təsnifatı. Mədə xərçənginin müalicəsi, adyuvant dərman terapiyası. Target terapiyası. Mədə xərçənginin zamanı neoadyuvant dərman terapiyasının rolu, target dərman terapiyası. Mədə xərçənginin dərman terapiyası zamanı işlədilən rejimlər.<br>Kolorektal xərçəngin TNM təsnifatı. Kolorektal xərçəng zamanı adyuvant və neoadyuvant dərman terapiyası, target terapiyası. Ən çox işlədilən dərman terapiyası rejimləri.<br><br>Oxu materialları (kitabın adı, müəlliflər):<br>1. Ə.T. Əmiraslanov, A.Y. Qazıyev. Onkologiya.<br>2. Под редакцией Н.И. Переводчиковой, В.А. Горбуновой. Руководство по химиотерапии | – | Təcrübi məşğələ | 6 |

| | | | | |
|---|---|---|---|---|
| | опухолевых заболеваний.<br>3. Давыдов М.И., Ганцев Ш.Х. Онкология (2020). Учебник<br>4. Руководство по онкологии. Том I, II, III. Минск 2016.<br>5. What is colorectal cancer? Let us explain it to you. ESMO/ACF patient guideseries based on the ESMO clinical practice guidelines. | | | |
| | Mövzu №IV<br>Uşaqlığın, yumurtalıqların xərçənginin kimyəvi dərman müalicəsi<br><br>Qısa icmalı: Uşaqlıq boynu xərçəngi, TNM təsnifatı. Uşaqlıq boynu xərçənginin bədxassəli şişlərinin morfoloji klassifikasiyası. Uşaqlıq boynu xərçənginin, metastazlarının və residivlərinin kimyəvi dərman terapiyası. Ən çox işlədilən kimyəvi dərman terapiyası rejimləri.<br>Uşaqlıq cismi xərçəngi. TNM təsnifatı. Uşaqlıq cismi xərçənginin morfoloji təsnifatı. Proqnostik faktorlar. Uşaqlıq cismi xərçənginin adyuvant və neoadyuvant dərman terapiyası, ən çox işlədilən dərman terapiyası rejimləri.<br>Yumurtalıqların xərçəngi, TNM təsnifatı, morfoloji klassifikasiyası. Yumurtalıq xərçənginin adyuvant və neoadyuvant dərman terapiyası, sitoreduktiv cərrahi müdaxilələr və kimyəvi dərman terapiyası, target terapiya.<br><br>Oxu materialları (kitabın adı, müəlliflər):<br>1. Ə.T. Əmiraslanov, A.Y. Qazıyev. Onkologiya.<br>2. Под редакцией Н.И. Переводчиковой, В.А. Горбуновой. Руководство по химиотерапии опухолевых заболеваний.<br>3. Давыдов М.И., Ганцев Ш.Х. Онкология (2020). Учебник<br>4. Руководство по онкологии. Том I, II, III. Минск 2016.<br>5. What is ovarian cancer? Let us explain it to you. ESMO/ACF patient guideseries based on the ESMO clinical practice guidelines.<br>6. What is cervical cancer? Let us explain it to you. ESMO/ACF patient guideseries based on the ESMO clinical practice guidelines. | – | Təcrübi məşğələ | 6 |
| | Mövzu № V<br>Ağciyər xərçənginin kimyəvi dərman müalicəsi. Onkoloji xəstələrə pallitiv yardım haqqında məlumat<br><br>Qısa icmalı: Ağciyər xərçənginin TNM təsnifatı. Ağciyər xərçənginin kimyəvi dərman müalicəsi. Kiçik və qeyri-kiçik hüceyrəli ağciyər xərçənginin kimyəvi dərman terapiyasına göstərişlər, istifadə olunan dərman terapiyası sxemləri. Adyuvant dərman terapiyası. | – | Təcrübi məşğələ | 6 |

| | | | | |
|---|---|---|---|---|
| | Palliativ yardımın əsas tərif və anlayışları, prinsip və standartları. Palliativ yardıma göstəriş. Palliativ yardımın təşkilati formaları: xəstəxana şəraitində palliativ yardım, evdə palliativ yardım, hospis stasionarlarında palliativ yardım.<br><br>Oxu materialları (kitabın adı, müəlliflər):<br>1. Ə.T. Əmiraslanov, A.Y. Qazıyev. Onkologiya.<br>2. R.B. Bayarmov. Onkologiya.<br>3. Под редакцией Н.И. Переводчиковой, В.А. Горбуновой. Руководство по химиотерапии опухолевых заболеваний.<br>4. Давыдов М.И., Ганцев Ш.Х. Онкология (2020). Учебник<br>5. Руководство по онкологии. Том I, II, III. Минск 2016.<br>6. Azərbaycanda palliativ tardımın təşkilinə dair metodik vəsait. | | | |

**III. <u>İmtahanın keçirilməsi forması – komyuter vasitəsilə test.</u>**

**IV. <u>Semestr ərzində qiymətləndirmə və bal bölgüsü:</u>**

Balların maksimum miqdarı – 100 bal.

***A) Semestr ərzində toplanan maksimum bal* – 50 bal.**

| | |
|---|---|
| Dərsə davamiyyətə görə | 10 bal |
| Tələbələrin sərbəst işinə (referat, prezentasiya, tədqiqat işi və s.) görə<br>Qeyd: Plagiat halları qəti qadağandır! Sərbəst işlə əlaqədar bütün tapşırıqların mövzuları, qısa təsviri, təqdim olunma şərtləri, vaxtı və qiymətləndirmə üsulu dəqiq göstərilir.* | 10 bal |
| Məşğələ dərslərinin nəticələrinə görə | 30 bal |

***** Hər tələbə 5 balla qiymətləndirilən 2 sərbəst iş təqdim edir:

1. Verilmiş mövzu üzrə referat, prezentasiya (qiymətləndirmə zamanı tələbənin yaradıcı yanaşması, alqoritmin qurulması, dizayn və performasa diqqət yetirilir). Mövzular, praqram üzrə tədris aparan müəllim tərəfindən təklif olunur.
2. Xəstə haqqında məlumatlar verilməklə dərman sxemi üzrə reseptlərin hazırlanması (qiymətləndirmə zamanı dərman preparatının dozasının hesablanmasına, reseptin düzgün tərtibinə, dizayn və performansa diqqət yetirilir).

***B) Semestr imtahanı nəticəsinə görə* – maksimum 50 bal**

Hər test tapşırığı 50 sual, hər suala – 1 bal verilir, səhv cavablar nəticəyə təsir edir.

Qeyd: Tələbənin imtahandan topladığı balın miqdarı 17-dən az olmamalıdır.

***C) Semestr nəticəsinə görə qiymətləndirmə (imtahan və imtahana qədər toplanan ballar əsasında):***

| | | |
|---|---|---|
| **91 – 100 bal** | **əla** | **A** |
| **81 – 90 bal** | **çox yaxşı** | **B** |
| **71 – 80 bal** | **yaxşı** | **C** |
| **61 – 70 bal** | **kafi** | **D** |

| | | |
|---|---|---|
| **51 – 60 bal** | **qənaətbəxş** | **E** |
| **51 baldan aşağı** | **qeyri-kafi** | **F** |

**Hazırladı:** **t.ü.e.d., professor A.Y. Qazıyev**

**dosent N.V. Qasımov**